# AÇIQ HÖKUMƏTİN TƏŞVİQİNƏ DAİR MİLLİ FƏALİYYƏT PLANININ İCRASI ÜZRƏ ALTERNATİV HESABAT

Bu Alternativ Hesabatı Azad İqtisadiyyata Yardım ictimai birliyinin ekspertləri könüllü əsaslarla hazırlayıblar

## İcmal

Azərbaycan 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığı (OGP) Bəyannaməsinə qoşulduqdan sonra iki dəfə Milli Fəaliyyət Planı qəbul edib. 27 aprel 2016-cı il tarixdə, ikinci fəaliyyət planı - Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı (MFP) qəbul edilib.

2016-cı ildə Azərbaycanda dövlət-vətəndaş cəmiyyəti arasında məsləhət mexanizmi kimi nəzərdə tutulan Dialoq Platforması yaradılıb. Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması adlı qurum Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə yaradılıb. Platformanın üzvləri bəzi istisnalarla əsasən hökumətyönlü QHT-lərdən ibarətdir. Platformada 8 dövlət qurumu təmsilçisi, 2 deputat, 31 QHT nümayəndəsi təmsil olunur. QHT-lərin bura hansı meyarlar əsasında dəvət edilməsi məlum deyil.

Azərbaycanın OGP-dəki statusunun qeyri-aktiv edilməsi ilə bağlı qərarın qəbulunadək hökumətlə OGP-nin Rəhbər Komitəsi arasında bir il davam edən kommuniksiya olub. 2015-ci ilin may ayında OGP-nin Dəyərləndirmə Qrupu (Review Team) ölkədə Açıq Hökumət Təşəbbüsü öhdəliklərinin icrası ilə bağlı hesabat hazırlayıb. Həmin hesabatda QHT-lərin qeydiyyat prosesinin mürəkkəb olduğu xususi vurğulanıb. 2014-2015-ci illərdə müstəqil QHT-lərdə aparılan genişmiqyasılı vergi yoxlamalarına, vətəndaş cəmiyyəti liderlərinə qarşı qaldırılan cinayət işlərinə və onların təqibinə, məhkəmə qərarları əsasında QHT-lərin bank hesablarının dondurulmasına, OGP ilə bağlı addımların hazırlanmasında və həyata keçirilməsində vətəndaş cəmiyyəti ilə məsləhətləşmələrin uğursuzluğa düçar olmasına da hesabatda diqqət ayrılıb.[1]

2015-ci ilin iyulunda OGP-nin Meyarlar və Standartlar Altkomitəsi Azərbaycan hökuməti ilə dialoqa dair təkliflər səsləndirib. Həmin təkliflərə görə, hökumət yeni Fəaliyyət Planını 30 dekabr 2015-ci ilədək tam hazır vəziyyətə gətirilməli, 1 yanvar 2016-cı ildən etibarən Planın icrasına başlanmalı idi. 2016-cı ilin fevralında OGP-nin Meyarlar və Standartlar Altkomitəsinin Azərbaycanla bağlı qəbul etdiyi qətnamədə qeyd edilirdi ki, Azərbaycan hökuməti 8 ay əvvəl irəli sürdüyü təklifləri yerinə yetirməyib, yalnız OGP-nin Rəhbər Komitəsi ilə əməkdaşlığa dair təklifə qismən əməl edilib.[2]

2016-cı ilin may ayının 4-də isə Cənubi Afrika Respublikasının Keyp Taun şəhərində keçirilən toplantıda Azərbaycanın OGP-də üzvlüyünün qeyri-aktiv edilməsi ilə bağlı qərar qəbul edildi.[3]

---

[1] https://www.opengovpartnership.org/sites/default/files/Azerbaijan_Final-Report_Concerns-Filed_May2015.pdf
[2] http://www.opengovpartnership.org/sites/default/files/CS%20resolution%20on%20Azerbaijan.pdf
[3] https://www.opengovpartnership.org/es/node/9206

Qərarda qeyd edilirdi ki, yeni Fəaliyyət Planının təqdim edilməsi də daxil olmaqla Azərbaycan hökuməti müəyyən pozitiv addımlar atsa da, vətəndaş cəmiyyətinin fəaliyyət mühitinin yaxşılaşdırılması ilə bağlı Meyarlar və Standartlar Altkomitəsinin qətnaməsində əks etdirilən problemlər həll edilməmiş qalıb. Azərbaycan hökumətinə qeyd olunan problemləri aradan qaldırmaq üçün bir il vaxt verilir.

Hökumət 2016-cı ilin sonlarında və 2017-ci ilin əvvəllərində qrantların verilməsində və xarici donorların qrant fəaliyyəti ilə bağlı qanunveriliyə müəyyən dəyişikliklər edib. Təəssüflə qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyətinin fəaliyyətini məhdudlaşdıran qanunvericiliyə gətirilən məhdudiyyətlərin tətbiqindən sonra, son 3 ildə QHT-lərin problemlərinin həlli istiqamətində həlledici hüquqi və praktiki addımlar atılmayıb.

Nazirlər Kabinetinin 11 yanvar 2017-ci il tarixli "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması" və 24 yanvar 2017-ci il tarixli "Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazinsində qrant vermək hüququnun əldə edilməsi" Qaydalarında edilmiş dəyişikliklər QHT-lərin fəaliyyətində problemlər yaradan məhduduiyyətlərin aradan qalxmasına töhfə verməyib.

Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi ilə bağlı qaydalara da son dəyişiklik 2 mühüm problemin aradan qaldırılmasını təmin etməyib: 1) yenə də xarici təşkilatlar hökumətdən donor statusu almadan qrant vermək hüququna sahib ola bilməz; 2) yenə də xarici donorlar donor statusu alsalar belə, ayırdıqları qarantların məqsədəuyğunluğu ilə bağlı Maliyyə Nazirliyindən rəy almağa borcludurlar.

Azərbaycanda ikinci MFP-nin hazırlanması prosesi dövlət qurumlarının və vətəndaş cəmiyyətinin təmsil oldunduğu Daimi Dialoq Mexanizmi olmadan icra olunub. İkinci MFP-nin müzakirəsi qabaqcadan hazırlanmış plan əsasında aparılmayıb, müzakirənin intensivliyi və əhatə dairəsi məhdud olub. Planın hazırlanması və müzakirəsi Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası və hökumət yönlü QHT-lərin Antikorrupsiya Şəbəkəsi fasilitatorluğu və təşkilatçılığı aparılıb. Müzakirə dövründə vətəndaş cəmiyyətinin iştirakı ilə ümumilikdə 3 dəyirmi masa keçirilib. Müzakirə dövründə Komissiyanın saytında elan və MFP-nin layihəsi yerləşdirilib.

MFP-nin hazırlanması prosesində bəzi texniki xarakterli təkliflər, məsələn, vahid fəaliyyət planının qəbul edilməsi, MFP-nin iki illik dövrü əhatə etməsi qəbul edilsə də, maliyyə şəffaflığı, dövlət şirkətlərinin hesabatlılığı, dövlət idarəetməsində maraqlar konfliktinin aradan qaldırılması ilə bağlı tövsiyyələr sənəddən kənarda qalıb.

Müəyyən yeniliklərə baxmayaq ikinci Milli Fəaliyyət Planı OGP standatlarına tam cavab vermir. Çünki MFP-də sadəcə öhdəliklərin adı sadalanır və məqsədlər çox yayqındır. Halbuki üzv ölkələrin qabaqcıl təcrübələri göstrir ki, hər bir öhdəliyin yerinə yetirilməsi üçün zaman çərçivəsi dəqiq müəyyənləşdirilməli və öhdəliyin icrası üzrə hədəflər aydın göstərilməlidir.
Fəaliyyət Planının icrası mərhələsində ölkədə söz azadlığının məhdudlaşdırılması, vətəndaş cəmiyyətinə təzyiqlərin artması nəinki səngiyib, əksinə bu istiqamətdə bir sıra əlavə addımlar müşahidə edilib. Əvvəla, 26 sentyabr 2016-cı ildə keçirilən Konstitusiya dəyişiklikləri ilə bağlı referndumda hökumətin səsverməyə çıxardığı məsələlərdən biri də media və vətəndaş

cəmiyyətinin onsuz da məhdud olan informasiya almaq imkanlarının bir qədər də məhdudlaşdırılması ilə bağlı olub.

MFP-nin icrası dövründə, xüsusilə də 26 Sentyabr 2016-ci il referendumu ərəfəsində və ondan sonra müstəqil vətəndaş cəmiyyəti fəallarının bilavasitə özlərinə və ailələrinə qarşı təzyiqlər artmışdır. Belə hallara misal kimi, bloqqer və Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun sədri Mehman Hüseynovun 2 il müddətinə azadlıqdan mərhum edilməsini, əvvəllər siyasi məhbus həyatı yaşamış Bəşir Süleymanlının özünə və ailəsinə təzyiqləri, Kanal13 internet televiziyasının Bakı ofisinin rəhbəri Əziz Orucovun əsassız olaraq 30 sutkalıq inzibati həbsini, sonra isə onunla bağlı 4 aylıq həbs qətiimkan tədbirinin seçilməsini, müxalifətçi jurnalist Əfqan Muxtarlının Tbilisidən oğurlanıb gətirilərək Azərbaycanda həbs edilməsini göstərmək olar.

Eləcə də bu yaxınlarda Azadlıq Radiosunun "azadliq.org", "Azadlıq" qəzetinin "azadliq.info", "Meydan TV"nin, "Turan TV"nin və "Azərbaycan saatı" televiziya proqramının Azərbaycanda saytlarına və ölkə üzrə girişin məhkəmə qərarı ilə məhdudlaşdırılması MFP-nin icra dövrünə təsadüf edir.

## 1. Giriş

Azərbaycan Açıq Hökumət Tərəfdaşlığı Bəyannaməsinə qoşulmaq niyyətini bəyan edən ilk ölkələrdən olub. Hökumət təşəbbüsün yaradılmasından bir il sonra - 2012-ci ildə iki sənəd - Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Fəaliyyət Planı və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı qəbul edib. 27 aprel 2016-cı ildə ikinci fəaliyyət planı - Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı qəbul edilib.

OGP-nin əsas ideyalarından biri budur ki, hökumətlər özlərinin açıqlığı və hesabatlılığı ilə bağlı milli fəaliyyət planlarının hazırlanmasına və həyata keçirilməsinə mütləq vətəndaş cəmiyyətini cəlb etməlidirlər. Faktiki olaraq vətəndaş cəmiyyətinin olmadığı, yaxud vətəndaş cəmiyyətinin bərabərhüquqlu tərəfdaş kimi tanınmadığı ölkələrin tərəfdaşlıqda iştirakı mümkün deyil. 2016-cı ildə Azərbaycanın OGP-dəki statusu qeyri-aktiv edilərkən əsas səbəbi kimi ölkədə vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə yaradılmış məhdudiyyətləri göstərib. Bununla belə, Azərbaycan hökuməti ötən müddət ərzində vətəndaş cəmiyyətinə yönəlik siyasətini dəyişməyib.

26 sentyabr 2016-cı ildə cəmiyyətlə heç bir müzakirə aparmadan Azərbaycan prezidentinin təşəbbüsü ilə Konstitusiyaya 29 dəyişikliyin edilməsi barədə referendum keçirilib. Venesiya Komissiyasının mənfi rəy verdiyi[4] Referendum Aktında nəzərdə tutulan dəyişiklərin 14-ü insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlib.[5]

Azərbaycan başqa bir beynəlxalq şəffaflıq platforması olan Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü (EITI) ilə yollarını ayrırıb. 9 mart 2017-ci ildə EITI İdarə Heyəti vətəndaş cəmiyyəti üçün əlverişli mühitin yaradılması üzrə tövsiyyələri icra etmədiyinə görə Azərbaycanın EITI-dakı statusunu dayandırıb.[6] Bundan sonra bu qərarı ədalətsiz sayaraq Azərbaycan hökumətinin

[4] http://www.venice.coe.int/webforms/documents/default.aspx?pdffile=CDL-PI(2016)010-e
[5] http://opengovernment.az/blog/referendum-akt-ifad-azadl-n
[6] https://eiti.org/BD/2017-15

EITI-dakı təmsilçisi, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov Azərbaycanın təşəbbüsdən çıxdığını elan edib.[7]

Bu Alternativ Hesabat hazırlanarkən masaarxası tədqiqat, rəsmi sənədlərin və məlumatların təhlili və müsahibə üsullarından istifadə olunub. Hesabatın hazırlanması prosesində bütün maraq qrupları, o cümlədən bəzi millət vəkilləri və vətəndaş cəmiyyəti təmsilşiləri ilə müsahibələr götürülüb, qanunvericilik aktları, hökumət nümayəndələrinin açıqlamaları təhlil edilib. Eyni zamanda OGP-nin meyarları və tövsiyələri öyrənilərək Azərbaycan hökumətinin onları necə icra etdiyi qiymələndirilib.

## 2. Azərbaycanın OGP-dəki statusunun qeyri-aktiv edilməsindən öncəki vəziyyət

4 may 2016-cı il tarixdə Cənubi Afrika Respublikasının Keyp Taun şəhərində Azərbaycanın OGP-dəki statusunun qeyri-aktiv edilməsi ilə bağlı qərarın qəbulunadək hökumətlə OGP-nin Rəhbər Komitəsi arasında 1 il davam edən kommuniksiya olmuşdur. Hələ 2015-ci ilin may ayında OGP-nin Dəyərləndirmə Qrupu (Review Team) ölkədə açıq hokumət təşəbbüsü ilə bağlı proseslər, Azərbaycan hökumətinin OGP qarşısında öhdəliklərinin icra vəziyyətinin qiymətləndirilməsi ilə bağlı hesabat hazırlamışdı[8]. Həmin hesabatda Azərbaycan hökumətinin 2013-2014-cü ildə atdığı bir sıra addımların OGP Bəyannaməsi ilə müəyyən olunan öhdəliklərə, Meyarlar və Standartlar Altkomitəsi tərəfindən hazırlanan "Tənzimləmə Siyasəti" (Response Policy) sənədində müəyyən edilmiş prinsiplərə zidd olduğu xüsusi vurğulanmışdır. Əsas narahatlıq kimi qeyri-kommersiya qurumlarının və vətəndaş cəmiyyəti təsisatlarının müstəqil fəaliyyət imkanlarını daraldan, həmin təşkilatların istər daxili, istərsə də xarici maliyyə mənbələrindən resursların cəlb edilməsinə, birləşmə və ifadə azadlığına sərt məhdudiyyətləri nəzərdə tutan, xarici donor təşkilatlarının donor statusu almasını və qrantverma hüququ əldə etməsini mürəkkəbləşdirən qanunvericilik dəyişiklikləri göstərilmişdir.

Eyni zamanda hesabatda QHT-lərin qeydiyyat prosesinin mürəkkəb olduğu xususi vurğulanmışdı. 2014-2015-ci illərdə müstəqil QHT-lərdə aparılan genişmiqyasılı vergi yoxlamalarına, vətəndaş cəmiyyəti liderlərinə qarşı qaldırılan cinayət işlərinə və onların təqibinə, məhkəmə qərarları əsasında bu qurumların bank hesablarının dondurulmasına, OGP ilə bağlı addımların hazırlanmasında və həyata keçirilməsində vətəndaş cəmiyyəti ilə məsləhətləşmələrin uğursuzluğa düçar olmasına da hesabatda diqqət ayrılıb.

Hesabatda vətəndaş cəmiyyətinin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı qanunvericiliyə edilən əlavə və dəyişikliklər dedikdə 17 dekabr 2013-cü il və 17 oktyabr 2014-cü il tarixlərdə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanununda aparılan 26 fərqli məhdudlaşdırıcı hüquqi normalar nəzərdə tutulur. Həmin dəyişikliklər nəticəsində xarici donor təşkilatlarının yalnız ölkədə donor statusu aldıqdan və qrantvermə hüququ qazanmaq üçün hökumətlə müvafiq sazişlər bağladıqdan sonra yerli QHT-lərlə əməkdaşlığına icazə verilir.

2015-ci ilin iyulunda OGP-nin Meyarlar və Standartlar Altkomitəsi tərəfindən Azərbaycan hökuməti ilə dialoqa dair təkliflər səsləndirildi. Həmin təkliflərə görə, hökumət yeni Fəaliyyət Planını 30 dekabr 2015-ci ilədək tam hazır vəziyyətə gətirilməli, 1 yanvar 2016-cı ildən etibarən

7 https://eiti.org/news/azerbaijan-withdraws-from-eiti
8 http://www.opengovpartnership.org/sites/default/files/Azerbaijan_Final-Report_Concerns-Filed_May2015.pdf

Planın icrasına başlanmalıdır. Eyni zamanda, hökumətə tövsiyə edilirdi ki, Müstəqil Hesabatlılıq Mexanizmi (IRM) ilə əməkdaşlıq etməklə müstəqil qiymətləndiricilərin effektiv dəyərləndirmə aparması mümkün olsun. Yeni Fəaliyyət Planının hazırlanması ilə bağlı vətəndaş cəmiyyəti ilə sıx məsləhətləşmələrin başlanılması, QHT-lərin fəaliyyəti üçün mühitin yaxşılaşdırılması ilə bağlı qrantların verilməsi və QHT-lərin fəaliyyəti haqqında qanunvericilikdə dəyişikliklərin edilməsi də Altkomitənin tövsiyyələri sırasında idi. Meyarlar və Standartlar Altkomitəsi Azərbaycan hökumətinə təklif edirdi ki, bu dəyişikliklər yeni Fəaliyyət Planının icrasına start veriləndən maksimum 6 ay ərzində (2016-cı ilin iyununadək) baş verməlidir. Bu addımların atılması dövründə Azərbaycan hökuməti OGP-nin Rəhbər Komitəsi ilə əməkdaşlıq etməli, ehtiya olduqda Meyarlar və Standartlar Altkomitəsindən zəruri dəstək almalı idi.

2016-cı ilin fevralında OGP-nin Meyarlar və Standartlar Altkomitəsi Azərbaycanla bağlı qətnamə qəbul etdi.
Sənəddə qeyd edilirdi ki, Azərbaycan hökuməti 8 ay əvvəl irəli sürdüyü təklifləri, xüsusən yeni Fəaliyyət Planının təklif edilən zamana qədər hazır vəziyyətə gətirilməsi və icrasına start verilməsini, bu prosesdə vətəndaş cəmiyyəti ilə aktiv əməkdaşlıq edilməsini, QHT-lərin fəaliyyəti ilə bağlı mühitin yaxşılaşdırılması ilə əlaqəli təklifləri yerinə yetirməyib. Yalnız OGP-nin Rəhbər Komitəsi ilə əməkdaşlığa dair təklifə qismən əməl edilib. Yaranmış vəziyyətdən çıxış edən Meyarlar və Standartlar Altkomitəsi Azərbaycanın üzvülüyü qeyri-aktiv edilməsi ilə bağlı OGP-nin Rəhbər Komitəsinə təklif göndərmişdi.[9]

2016-cı ilin may ayının əvvəlində Azərbaycan hökuməti OGP-nin Rəhbər Komitəsinə Meyarlar və Standartlar Altkomitəsinin təklifklərinin icrası vəziyyəti ilə bağlı mövqeyini əks etdirən əsaslandırma məktubu göndərdi. Məktubda yeni Fəaliyyət Planının hazırlanması prosesinə vətəndaş cəmiyyətinin cəlb edilməsi ilə bağlı keçirilən bir neçə ictimai toplantı, vətəndaş cəmiyyəti fəallarının həbsdən azad edilməsi, bəzi QHT-lərin bank hesablaırndan həbsin ləğvi ilə bağlı məlumatlar əks olunmuşdu.

4 may 2016-cı ildə isə OGP Rəhbər Komitəsi Cənubi Afrika Respublikasının Keyp Taun şəhərində keçirilən toplantısında Azərbaycanın OGP-də üzvlüyünün qeyri-aktiv edilməsi ilə bağlı qərar qəbul etdi.[10] Qərarda qeyd edilirdi ki, yeni Fəaliyyət Planının təqdim edilməsi də daxil olmaqla Azərbaycan hökuməti müəyyən pozitiv addımlar atsa da, vətəndaş cəmiyyətinin fəaliyyət mühitinin yaxşılaşdırılması ilə bağlı Meyarlar və Standartlar Altkomitəsinin qətnaməsində əks etdirilən problemlər də həll edilməmiş qalıb. Bundan çıxış edərək OGP-nin Rəhbər Komitəsi Azərbaycanın üzvlüyünün qeyri-aktiv edilməsi ilə bağlı qərar qəbul edib. Qərarda qeyd edilir ki, Azərbaycan hökumətinin qeyd olunan problemləri aradan qaldırmaq üçün bir il vaxtı olacaq. Əgər qarşıdakı bir ildə Meyarlar və Standartlar Altkomitəsi tövsiyyələrə əməl olunmasını müşahidə edərsə və OGP-nin Rəhbər Komitəsinə müvafiq təklif göndərərsə, ölkənin tamhüquqlu üzvülüyü bərpa ediləcək. Qərara görə, qeyri-aktiv üzvülüyün qaldığı dövrdə ölkəyə əlavə hər hansı tövsiyyə ünvanlanmayacaq və Azərbaycanın OGP-nin müvafiq strukturları tərəfindən problemlərin həllilə bağlı ehtiyac duyduğu dəstəyi almaq imkanına malik olacaq.

## 3. Ölkənin qeyri-aktiv statusu dövründə vətəndaş cəmiyyəti ilə bağlı mühit

[9] http://www.opengovpartnership.org/sites/default/files/CS%20resolution%20on%20Azerbaijan.pdf
[10] https://www.opengovpartnership.org/es/node/9206

OGP Rəhbər Komitəsinin Azərbacanın statusunun qeyri-aktiv edilməsi ilə bağlı 4 may 2016-cı il tarixli qərarının ardınca (3-9 iyul 2016-cı il tarixlərdə) EITI Beynəlxalq Katibliyinin missiyası dəyərləndirmə hesabatı hazırlamaq məqsədilə Azərbaycana səfər etmişdir. Hesabatı hazırlamaqda məqsəd 15 aprel 2015-ci ildə Konqo Respublikasının paytaxtı Brazzavildə keçirilən "Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü" (MSŞT) üzrə beynəlxalq İdarə Heyətinin 29-cu toplantısında qəbul edilmiş islahedici tədbirlərin icra vəziyyətini qiymətləndirmək idi. Həmin toplantıda Azərbaycanın EITI-dakı statusu tamhüquqlu üzvlükdən "namizədliyə" endirmişdir. Qərara əsasən, hökumət 2016-cı ilin aprel ayınadək islahedici tədbirlər planında nəzərdə tutulan tövsiyyələri həyata keçirəcəyi tədqirdə yenidən EITI-da tamhüquqlu üzv statusunu bərpa etmək imkanı qazanacaqdı. İslahedici tədbirlər planının tövsiyyələrinin bir hissəsi bilavasitə EITI proseslərində vətəndaş cəmiyyətinin maneəsiz iştirakına şəraitin yaradılması ilə bağlı idi. Azərbaycan hökuməti nəzərdə tutulan dövrdə EITI Standartının 1.3 maddəsində (Vətəndaş cəmiyyəti iştirakçılığı) qeyd olunan tələblərə və Vətəndaş Cəmiyyəti Protokoluna uyğun olaraq vətəndaş cəmiyyəti üzvlərinin sərbəst fəaliyyət göstərməsinə şərait yaratmalı idi. Bununun üçün isə EITI prosesinə cəlb edilmiş vətəndaş cəmiyyəti qruplarının öz fəaliyyətini təşkil etmək üçün qrantlara sərbəst çıxış əldə etməlidir. Yeni imzalanmış qrant müqavilələrinin maneəsiz qeydiyyatı, mədən sənayesi ilə bağlı tədbirlərin sərbəst təşkil edilməsi, VC-ti tərəfindən fikirləri hər-hansı bir repressiya qorxusu olmadan azad ifadə etməsi üçün hökumət zəruri mühiti təmin etməli idi.

2016-cı ilin iyul-avqust aylarında aparılan dəyərləndirnə nəticəsində hazırlanan hesabatda bütün maraqlı tərəflərin rəyləri əsasında islahedici tədbirlər planında nəzərdə tutulan tövsiyyələrə əməlolunma vəziyyəti qiymətləndirilmişdir[11]. EITI Beynəlxaql İdarə Heyətinin 26 oktyabr 2016-cı ildə Qazaxıstanın Astana şəhərində keçirilən toplantısında Hesabata əsasən Azərbaycanın qurumdakı statusu ilə bağlı növbəti qərar qəbul edilmişdir. Qərarda qeyd edilmişdi ki, 2015-ci ildəki Qiymətləndirmə ilə müqayisədə bir sıra fərdi tələblər üzrə nəzərəçarpan proqres müşahidə edildiyi üçün Azərbaycanın “namizəd statusu” saxlanmışdır. Lakin vətəndaş cəmiyyətinin cəlbi üzrə tələbdə qənaətbəxş irəliləyişə nail olunmadığı üçün Azərbaycana yenidən 2017-ci ilin mart ayınadək zaman verilmişdir. İslahedici tədbirlərin İdarə Heyətini qane edən səviyyədə icra olunmayacağı tədqirdə EITI Standartına əsasən ölkənin üzvlüyünün dayandırılcağı ilə bağlı qərar Azərbaycan hökumətinə təqdim edilmişdi. Qərarda göstərilmişdir ki, Azərbaycanın davamlı və vaxtlı-vaxtında hesabatvermə təcrübəsi alqışlansa da, bu pozitiv aspekt vətəndaş cəmiyyətinin prosesə cəlbində yaranmış çətinliklər qarşısında çox mühüm əhəmiyyət kəsb etmir. Vətəndaş cəmiyyəti ilə bağlı mövcud çətinliklər mədən sənayesində gəlirlər haqqında ictimai məlumatlılığın artırılması potensialını, şəffaflıq və hesabatlılıq standartlarının yüksəldilməsini məhdudlaşdırır.

Nəhayət, 9 mart 2017-ci ildə EITI İdarə Heyətinin Kolumbiyanın paytaxtı Boqota şəhərində keçirilən növbəti toplantısında öhdəliklərini yerinə yetirmədiyi üçün Azərbaycanın təşəbbüsdə üzvülüyünün dayandırılması ilə bağlı qərar qəbul edildi[12]. Azərbaycanla bağlı qərar verilməsinin əsas səbəblərindən biri EITI Beynəlxalq Katibliyi tərəfindən hazırladanan İslahedici Tədbirlər Planının icra səviyyəsinin qiymətləndirilməsinə dair hesabatı və ölkədə vətəndaş cəmiyyətinin durumuna dair huquqi dəyərləndirmələr oldu. Son qərarda da qeyd edilirdi ki, 2016-2017-ci illərdə hökumət QHT-lərin fəaliyyətini və qrantların verilməsini tənzimləyən qanunvericilikdə

[11] https://eiti.org/sites/default/files/documents/eng_azerbaijan_draft_report_on_initial_data_collection_and_stakeholder_consultations.pdf
[12] https://eiti.org/sites/default/files/documents/board_paper_36-5-a_azerbaijan_assessment_of_progress_with_corrective_actions_-_updated_6_march_2017-web.pdf

müəyyən dəyişikliklər etsə də, İslahedici Tədbirlər Planında əks olunan 3 mühüm tövsiyyənin icrası həll edilməmiş qaldı. Həmin planda təklif edilirdi ki, QHT-lərin 2 ildən bir qeydiyyat orqanından çıxarış alması, qrantların Ədliyyə Nazirliyində qeydiyyatı, xarici donorların qrantların məqsədəuyğunluğunu nəzərdə tutan mexanizmləri aradan qaldırılsın.[13]. Qərarı ədalətsiz sayan Azərbaycan hökuməti isə elə toplantının gedişində təşəbbüsdən çıxması ilə bağlı bəyanat yaydı[14]. Hökumətin əsas arqumenti bu oldu ki, "EITI öznünün ilk mandatından – hasilat sənayesində şəffaflıq və hesabatlılığın təmin edilməsi istiqamətindən xeyli uzaqlaşdı, nəticə etibarı ilə QHT-lərin maraqlarını dəstəkləyərək Azərbaycan üçün təzyiq mexanizminə çevrildi".

Azərbaycan hökuməti 2016-cı ilin sonlarında və 2017-ci ilin əvvəllərində qrantların verilməsi və xarici donorların qrant fəaliyyəti ilə bağlı qanunveriliyə müəyyən dəyişikliklər etdi. Təəssüflə qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyətinin fəaliyyətini məhdudlaşdıran qanunvericiliyə gətirilən məhdudiyyətlərin tətbiqindən sonra, son 3 ildə vətəndaş cəmiyyətinin problemlərinin həlli istiqamətində həlledici hüquqi və praktiki addımlar atılmayıb.

Nazirlər Kabinetinin 11 yanvar 2017-ci il tarixli "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması"[15] və 24 yanvar 2017-ci il tarixli "Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazinsində qrant vermək hüququnun əldə edilməsi"[16] Qaydalarında dəyişikliklər edilməsi barədə qərarlar qəbul olunub. Lakin bu dəyişikliklər QHT-lərin fəaliyyətində problemlər yaradan aşağıdakı məhduduiyyətlərin aradan qalxmasına töhfə verməyib:

- Qrant qeydiyyatını nəzərdə tutan normalar qüvvədə qalır; ***(1.7-ci və 4-cü bəndlər[17], 4-cü maddə)[18]***
- Qrant qeydiyyatı zamanı qeydiyyata alınmağa dair bildiriş verilməsi şərti qüvvədə qalır; ***(4-cü bənd, 4-cü maddə)***
- Banklarda qranta dair əməliyyat aparmaq üçün tələb olunan bildirişin təqdim edilməsi qüvvədə qalır; ***(1.8-ci bənd, 4-cü maddə)***
- Qrant içərisində ayrıca sub-qrant nəzərdə tutulubsa, sub-qrantın ayrıca qeydiyyata alınması şərti qüvvədə qalır; ***(1.2-ci bənd, 4-cü maddə)***
- Qeydə alınmayan qrant verilməsi və ya alınması haqqında müqavilələr (qərarlar) üzrə bank əməliyyatları, hər hansı digər əməliyyatların qadağan olması və buna görə müəyyən olunan hüquqi məsuliyyət qüvvədə qalır; ***(1.7-ci bənd, 4-cü maddə)***
- Qrant verilməsi və alınmasına dair donorlar, respiyentlər üçün nəzərdə tutulan ağır (15000 manatadək) inzibati cərimə sanksiyaları İnzibati Xətalar Məcəlləsinin 432-ci maddəsində olduğu kimi qalır.[19]

Əslində Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli, 216 saylı Qərarı[20] ilə təsdiq edilmiş Qaydaların özü belə qanunda olan məhdudlaşdırıcı normalardan da artıq məhdud xarakterdə idi və legitim hüquqi məqsəd daşımırdı. İndi qaydalara edilən dəyişikliklər görə texniki baxımdan tələb olunan sənədlərdə azalma olsa belə, mahiyyətində ciddi problemlər qalır. Məsələn,

---

[13] https://eiti.org/BD/2017-15
[14] https://eiti.org/sites/default/files/documents/2017-03-10-statement-az-leaving-eiti.pdf
[15] http://www.e-qanun.az/framework/30212
[16] http://www.e-qanun.az/framework/34706
[17] Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası http://www.e-qanun.az/framework/30212
[18] Qrant haqqında qanun http://www.e-qanun.az/framework/3527
[19] http://www.e-qanun.az/code/24
[20] http://www.e-qanun.az/framework/34689

Qaydaya əlavə edilən 1.10 bənddə göstərilir: “Qrant müqaviləsinin (qərarının) mahiyyəti (predmeti) xidmətlərin göstərilməsi və ya işlərin görülməsi məqsədi daşıyırsa, bu halda həmin müqavilə xidmət müqaviləsi kimi qeydiyyata alına bilər”. Son “xidmət müqaviləsi kimi qeydiyyata alına bilər” ifadəsi qeydiyyata alan orqanın mülahizəsinə bağlıdır. Yəni qeydiyyat orqanı müəyyən etsə ki, qrant müqaviləsində “iş görmə” və ya “xidmət” var, o zaman özü onun təyinatını qrant kimi yox, xidmət kimi dəyişəcək və dərhal bu vəsaitdən sadələşdirilmiş vergi və nəzərdə tutulan işlərin görülməsi üçün ƏDV tutulacaq. Beləliklə, qrantın ciddi bir hissəsi məqsədlərə yox, büdcəyə yönələcək. Üstəlik, bütün bunlar qeydiyyat orqanının mülahizəsilə reallaşa biləcək.

Digər bir dəyişiklikdə bildirilir: “Qaydaya 6 nömrəli əlavə - "Qrant alınmasına (verilməsinə) dair müqavilələrin (qərarların) qeydə alınması barədə bildirişin forması" ləğv edilsin”. Bu bənd elə təqdim edilir ki, guya artıq bildiriş ləğv edilir, halbuki sadəcə 6 nömrəli forma ləğv edilir. Amma bildirişi təqdimetmə şərti qanunda qalır. Praktikada müraciət edən tərəfə deyiləcək ki, biz bildiriş verməliyik, lakin bildirişin forması Nazirlər Kabinetinin qərarı ilə ləğv olub, yeni forma olmadığı üçün gözləmək məcburiyyətindəsiniz. Bu daha öncə də baş vemişdi. 2014-cü ilin iyul ayında Qrant qeydiyyatı qaydası ləğv edildi və 2015-ci ilin iyun ayınadək yeni qayda olmadı. Ədliyyə Nazirliyi bu müddətdə qaydalar ləğv olunduğundan və yenisi qəbul olunmadığından heç bir qrant müqaviləsini qeydiyyata almadı.

Qaydalarda müsbət hal kimi təqdim olunan dəyişikliklərdən biri də müddətlərə dair dəyişiklikdir. Halbuki bu dəyişikliklər qrantın icraya başlaması müddətini gecikdirməyə xidmət edir. Qeydiyyat olmadan fəaliyyətə icazə verilmədiyindən, müqavilələr hökmən qeydiyyata alınmalıdır. Uzadılan müddətlər bu baxımdan sonda bildirişin daha gec verilməsinə, beləliklə, icraya gec başlamasına səbəb olacaq. Məsələn, Ədliyyə Nazirliyinə müraciət edildikdən sonra Qaydaların 4.1-ci bəndinə əsasən 15 gün müddətində, əlavə araşdırma lazımdırsa, daha 15 gün uzadılaraq son qərar qəbul edilməlidir. İndiki dəyişikliklə Ədliyyə Nazirliyi Maliyyə Nazirliyinə məqsədəmüvafiqlik üçün sənədləri göndərdiyi gündən etibarən müddət axımı dayanacaq və Maliyyənin cavabı geri gəldikdən sonra bu müddət davam edəcək. Beləliklə, maksimum 30 günlük müddətə Maliyyə Nazirliyində keçən vaxt da əlavə ediləcək və müddət ola bilsin ki, 45 günədək uzansın.

Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi ilə bağlı qaydalara da son dəyişiklik iki mühüm problemin aradan qaldırılmasına imkan yaratmadı:

1) yenə də xarici  təşkilatlar hökumətdən donor statusu almadan qrant vermək hüququna sahib ola bilməz;
2) yenə də xarici donorlar donor statusu alsalar belə, ayırdıqları qarantların məqsədəuyğunluğu ilə bağlı Maliyyə Nazirliyindən rəy almağa borcludurlar.

Bu qaydalarda dəyişən yalnız o oldu ki, əgər xarici donor qrantların məqsədəuyğunluğu ilə bağlı Maliyyə Nazirliyindən rəy alarsa həmin qrantlar üzrə müqavilələri Ədliyyə Nazirliyində qeydiyyat üçün müraciətə ehtiyac qalmayacaq, qrant müqavilələrini Ədliyyə Nazirliyində qeydiyyatdan keçirtmək öhdəliyi qrantı alan təşkilatların üzərində qalacaq.

Beləliklə, Nazirlər Kabinetinin qərarlarına edilən son dəyişikliklərin beynəlxalq təsisatların (EITI və OGP) Azərbaycanda vətəndaş cəmiyyəti ilə bağlı mühitin yaxşılaşdırılması ilə bağlı tövsiyyələri istiqamətində dəyişikliklərə səbəb olmadı.

## 4. Milli Fəaliyyət Planının hazırlanması və təsdiqi

Açıq Hökumət Tərəfdaşlığı standartlarına görə, davam edən Milli Fəaliyyət Planının icrasının son 6 ayı ərzində yeni Fəaliyyət Planının hazırlığı başlayır. Hökmətin qarşısında duran əsas vəzifə Planın hazırlanması prosesinə vətəndaş cəmiyyətini cəlb etmək, onlarla məsləhətləşmə və müzakirə aparmaq, onların səsini eşitmək və rəylərini Planda nəzərə almaqdır.

OGP-yə üzv ölkələrdə MFP-nin hazırlanması prosesində dövlət qurumlarının və vətəndaş cəmiyyətinin təmsil oldunduğu Daimi Dialoq Qurumunda məsləhətləşmə və müzakirələr aparılır. Azərbaycanda OGP-yə üzv olduğu 2012-2016-cı illərdə belə bir qurum fəaliyyət göstərilməyib və buna görə də ikinci MFP-nin müzakirəsi qabaqcadan hazırlanmış plan əsasında aparılmayıb, müzakirənin intensivliyi və əhatə dairəsi məhdud olub.

İkinci MFP-nin hazırlanması və müzakirəsi Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası və əsasən hökumətyönlü qrupların cəmləşdiri QHT-lərin Antikorrupsiya şəbəkəsi fasilitatorluğu aparılıb. Müzakirə dövründə məhdud sayda müstəqil QHT-lərin də qatıldığı üç dəyirmi masa keçirilib. Müzakirə dövründə Komissiyanın saytında elan və MFP-nin layihəsi yerləşdirilib. İlk müzakirə[21] 27 noyabr 2015-ci ildə keçirilib və yeni MFP-nin hazırlanması üçün təkliflər müzakirə edilib. 11 fevral 2016-cı ildə keçirilən ikinci görüşdə[22] MFP-nin ilkin layihəsi müzakirə edilib. Görüşdə əvvəl verilmiş lakin nəzərə alınmamış təkliflər yenidən nəzərdən keçirilib. Üçüncü müzakirə görüşü[23] daha geniş tərkibdə olub. 14 mart 2016-cı ildə yerli və xarici təşkilatların, o cümlədən dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə konfrans keçirilib. Hər üç görüşdə OGP üzrə Azərbaycanın məsul şəxsi olan, parlament üzvü Vusal Huseynov da iştirak edib.

MFP-nin layihəsi Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın saytında yerləşdirilməklə yanaşı, saytda təkliflərin göndərilməsi üçün kontakt məlumatları da yerləşdirilib. MFP-nin hazırlanmasında təklif göndərən təşkilatlarla apardığımız müsahibələrin nəticəsi göstərir ki, təkliflərin nəzərəalınma səviyyəsi müxtəlif olub. Bəzi təşkilatlarda nəzərəalınma səviyyəsi 50-70% olduğu halda bəzilərində 10-20% arasında dəyişir. Nəzərə alınmayan təkliflər əsasən maliyyə şəffaflığı, dövlət şirkətlərinin hesabatlılığı, dövlət idarəetməsində maraqlar konfliktinin aradan qaldırılması, məmurların maliyyə bəyannanəsini açıqlaması əhatə edir.

Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı (MFP) ölkə prezidentinin 27 aprel 2016-cı il tarixli, 1993 saylı sərəncamı ilə qəbul edilib. Əvvəlki fəaliyyət planı 2012-2015-ci illəri əhatə edirdi və iki ayrı proqramdan (Açıq Hökumətin Təşviqinə dair Milli Fəaliyyət Planı və Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı) ibarət idi.

Yeni Fəaliyyət Planının icrası dövründə şəffaflığın artırılması və açıq hökumətin təşviqi sahəsində aşağıdakı istiqamətdə tədbirlərin görülməsi nəzərdə tutulub:

---

[21] http://antikorrupsiya.gov.az/view.php?lang=en&menu=3&id=433
[22] http://antikorrupsiya.gov.az/view.php?lang=en&menu=3&id=446
[23] http://antikorrupsiya.gov.az/view.php?lang=en&menu=3&id=453

- *Elektron xidmətlərin təkmilləşdirilməsi*
- *İnformasiya əldə edilməsinin təmin olunması*
- *Normativ hüquqi aktların vahid internet elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi*
- *Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişlənməsi və ictimai iştirakçılığın artması sahəsində*
- *Maliyyə şəffaflığının təmin edilməsi*
- *Yerli özünüidarəetmə orqanlarının fəaliyyəti sahəsində*
- *Mədən sənayesində şəffaflığın artırılması*
- *Korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi*
- *Özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması*
- *Maarifləndirmə və əməkdaşlıq*

Hökumət ikinci MFP-də elektron xidmətlərin göstərilməsi, korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi, maliyyə şəffaflığının təmin edilməsi isiqamətində daha çox öhdəlik götürüb. Öhdəliklərin icrasına 22 dövlət qurumu və şirkəti, o cümlədən Nazirlər Kabineti, Milli Məclis, Baş Prokurorluq, Dövlət Neft Fondu daxil edilib. Planın icrasına həmçinin İnsan hüquqları üzrə Müvəkkil, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, bələdiyyələr cəlb edilib.

Prezident sərəncamına görə, mərkəzi və yerli icra hakimiyyəti orqanları MFP-də nəzərdə tutulan tədbirlərin icrası barədə hər il dekabrın 30-dək Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabat təqdim etməlidirlər.

Birinci MFP ilə müqayisədə ikinci Milli Fəaliyyət Planı daha az ambisiyalı görünür. Yeni Milli Fəaliyyət Planına ümumilikdə 10 istiqamət üzrə 59 öhdəlik daxil edilib. Əvvəlki Milli Fəaliyyət Planında ümumilikdə 37 istiqamət üzrə 162 öhdəlik nəzərdə tutulmuşdu. Həm istiqamətlərin sayı, həm də öhdəliklərin sayı təxminən 3 dəfə azaldılıb, müddəti 3 ildən 2 ilə endirilib. Bununla belə, istər birinci, istərsə də ikinci Milli Fəaliyyət Planı OGP standatlarına tam cavab vermir. Çünki MFP-ndə sadəcə öhdəliklərin adı sadalanır və məqsədlər çox yayğındır. Halbuki üzv ölkələrin qabaqcıl təcrübələri göstrir ki, hər bir öhdəliyin yerinə yetirilməsi üçün zaman çərçivəsi dəqiq müəyyənləşdirilməli və öhdəliyin icrası üzrə hədəflər aydın göstərilməlidir.

## 5. Milli Fəaliyyət Planının icra vəziyyəti

MFP-nin icrası mərhələsində ölkədə söz azadlığının məhdudlaşdırılması, vətəndaş cəmiyyətinə təzyiqlərin artması nəinki səngiyib, əksinə bu istiqamətdə bir sıra yeni problemlər müşahidə edilib. Əvvəla, 26 sentyabr 2016-cı il tarixdə keçirilən Konstitusiya dəyişiklikləri ilə bağlı referndumda hökumətin səsverməyə çıxardığı məsələlərdən biri də media və vətəndaş cəmiyyətinin onsuz da məhdud olan informasiya almaq imkanlarının bir az da məhdudlaşdırılması ilə bağlı olub. Belə ki, Konstitusiyanın 32-ci maddəsinə edilən 6-cı əlavəyə əsasən, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır. Konstitusiyanın 32-ci maddəsinə edilən 7-cı əlavəyə görə isə məlumatın aid olduğu

şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz. Faktiki olaraq bu dəyişikliklərlə hökumət istər məmurların, istərsə də onlara yaxın şəxslərin ictimai mənafeyə zidd istənilən davranışın araşdırılması üçün müxtəlif mənbələrdən istifadə edərək zəruri məlumatlar əldə etməsi, sonradan bu məlumatları internet, elektorn və ya çap mediası üzərindən yayılmasına görə cəza mexanizmlərinin hazırlanması üçün hüquqi əsaslar formalaşdırmışdır.

MFP-nin icrası dövründə, xüsusilə də 26 Sentyabr 2016-ci il referendumu ərəfəsində və ondan sonra müstəqil vətəndaş cəmiyyəti fəallarına və mediyaya qarşı təzyiqlər artmışdır.

29 iyul 2016-cı ildə Milli Teleradio Yayım Şurası və əsasən Bakı Apelyasiya Məhkəməsi ANS telekanalının lisenziyasını ləğv edib.[24]

22 avqust 2016-cı ildə Bakı çəhəri Nəsimi Rayon Məhkəməsinin qərarı ilə “Azadlıq” qəzetinin direktoru Faiq Əmirli həbs edilib.[25] Bundan bir müddət sonra “Azadlıq” qəzeti çapını dayandırıb.

18 fevral 2017-ci il tarixdə Ədliyyə Nazirliyi Azad İqtisadiyyata Yardım ictimai birliyinə reyestrdən çıxarış verməkdən doqquzuncu dəfə imtina edib.

3 mart 2017-ci ildə korrupsiya və yüksək vəzifəli məmurların bahalı mülkləri ilə bağlı videolar hazırlayan bloqqer və Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun sədri Mehman Hüseynov diffamasiyada ittiham edilərək 2 il müddətinə azadlıqdan məhrum edilib.[26]

2017-ci ilin əvvələrində hüquq-müdafiəçisi, 2014-2016-cı illərdə siyasi məhbus həyatı yaşamış Bəşir Süleymanlının fəaliyyəti ilə bağlı onun Yevlax və Şəki rayonlarda yaşayan valideynlərinə yerli polis tərəfindən təzyiq göstərilib. 2 may 2016-cı tarixdə isə Bəşir Süleymanlının özü oğurlanaraq Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılaraq, 6 saatlıq dindərmədən sonra sərbəst buraxılıb.[27]

2 may 2017-ci ildə Qafqaz Media Araşdırmaları Mərkəzinin həmtəsisçisi və Kanal13 internet televiziyasının Bakı ofisinin rəhbəri Əziz Orucov küçədə həyat yoldaşı və həmkarının yanında polis tərəfindən saxlanılıb. O polisə müqavimətdə ittiham olunub və həmin gün Nəsimi Rayon Məhkəməsi onu 30 sutkalıq inzibati həbsə məhkum edib.[28] Daha sonra isə ona qarşı qanunsuz sahibkarlıq və vəzifə saxtakarlığı ittihamları ilə cinayət işi açılıb və 4 aylıq həbs qətimkan tədbiri seçilib. Həmçinin Kanal13-ün bütün avadanlıqları müsadirə edilib və internet televiziyasının əməkdaşlarının bir çoxu dindirilib, onların ölkədən çıxışına isə qadağa qoyulub.

29 may 2017-ildə Tbilisidə yaşayan müxalifətçi jurnalist Əfqan Muxtarlı yoxa çıxıb və bir gün sonra o Azərbaycanda sərhəddi qanunsuz keçmək, qaçaqmalçılıq və qanuni hakimiyyət nümayəndələrinə müqavimətdə ittiham olunaraq saxlanılıb. Onunla bağlı 3 aylıq həbs qətimkan

[24] http://www.amerikaninsesi.org/a/ans_mtrs/3439886.html
[25] http://transparency.az/cnews/faiq-%C9%99mirlinin-h%C9%99bsi-r%C9%99smil%C9%99sib
[26] https://www.azadliq.org/a/28344976.html
[27] https://www.azadliq.org/a/28462017.html
[28] http://www.kanal13.tv/az/portal/xeber/3602/Kanal13-%C3%BCn-direktoru-30-sutkal%C4%B1q-h%C9%99bs-edildi-%C6%8Fziz-Orucov-polis%C9%99-m%C3%BCqavim%C9%99td%C9%99-ittiham-edilir.htm

tədbiri seçilib. Əfqan Muxtarlı Tbilisidə evinin yaxınlığında Gürcüstanın criminal polisi geyimində olan şəxslər tərəfindən oğurlandığını, döyüldüyünü və bir neçə saatdan sonra Azərbaycanın tərəfinə təhvil verildiyini bildirir.

12 may 2017-ci ildə Bakı Şəhər Səbail Rayon Məhkəməsi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin iddiası əsasında Azadlıq Radiosunun "azadliq.org", "Azadlıq" qəzetinin "azadliq.info", "Meydan TV"nin, "Turan TV"nin və "Azərbaycan saatı" televiziya proqramının Azərbaycanda saytlarına girişi məhdudlaşdırılıb.[29]

Həmçinin hazırda aşağıdakı QHT-lərin hesablarında həbs qalmaqdadır:

i. Hüquq Marifçiliyi Cəmiyyəti (İntiqam Əliyev)
ii. Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu (Mehman Hüseynov)
iii. Milli və Beynəlxalq Araşdırmalar Mərkəzi (Leyla Əliyeva)
iv. Demokratiya və İnsan hüquqları Resurs Mərkəzi (Əsəbəli Mustafayev)
v. Media Hüquqları İnstitutu (Rəşid Hacılı)
vi. Hüquq Müdafiə və Mariflәndirmə Cəmiyyəti (Elçin Sadıqov)

MFP-nın nəzərdə tutulan konkret öhdəliklərin icra vəziyyətinə gəldikdə, artıq MFP-nin iki illik icra müddətinin təxminən bir ili başa çatıb. Bu müddətdə 59 öhdəliyin icra vəziyyəti aşağıdakı kimi olub:

***Elektron xidmətlərin təkmilləşdirilməsi*** istiqamətində bir sıra addımlar atılıb. Bunlara misal olaraq yerli vergilərin və ödənişlərin Mərkəzi Bankının Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş informasiya Sistemi və elektron terminallar vasitəsilə həyata keçirilməsi, "Elektron hökumət" portalına yeni xidmətlərin inteqrasiya edilməsi, portalın mobil interfeysinin, mobil tətbiqinin və ödəniş imkanlarının asanlaşdırılmasını göstərmək olar.

***İnformasiya əldə edilməsinin təmin olunması*** istiqaməti üzrə əhəmiyyətli işlər görülməyib. Dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrinin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi, çoxmənzilli binalarda mənzillərə dair verilmiş hüquq müəyyənedici sənədlərin vahid informasiya bazasının yaradılması istiqamətində fəaliyyətlər baş verməyib. Eyni zamanda daha əvvəl qeyd olunduğu kimi, son Konstitusiya dəyişikləri informasiya əldə edilməsinə əlavə məhdudiyyətlər gətirib.

***Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişlənməsi və ictimai iştirakçılığın artması* sahəsi üzrə:**

- *"Açıq hökumət tərəfdaşlığı" vətəndaş cəmiyyəti platformasının yaradılması və fəaliyyətinin dəstəklənməsi*

9 sentyabr 2016-cı ildə *Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması* yaradılıb. (www.ogp.org.az) Platforma Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə reallaşıb. Platformanın Əsasnaməsində məqsəd "Açıq Hökumət Tərəfdaşlığı" təşəbbüsünün Azərbaycanda tətbiqinə hərtərəfli dəstək verilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın və açıq

[29] https://www.azadliq.org/a/28482448.html

hökumət prinsiplərinin tətbiq edilməsi, bu təşəbbüsün Azərbaycanda tətbiqinə ictimai nəzarətin təmin edilməsi, habelə hökumət-vətəndaş cəmiyyəti dialoqunun inkişaf etdirilməsi göstərilir.

Platformanın yaradılması zamanı seçilmiş təşkilatlara üzvlük məqsədilə dəvətnamə göndərilib. Təşkilatların seçimi zamanı əsasən hökumətyönlü və hökumətin siyasətinə qarşı tənqidi yanaşmayan təşkilatlara üstünlük verilib. Müstəqil vətəndaş cəmiyyəti nümayəndələri 2015-ci ilin sonlarından başlayaraq Azərbaycanda hökumətlə konsultativ mexanizm olan Platformanın yaradılması təşəbbüsünə başlayıblar. 2016-cı ildə bunula bağlı dəyirmi masalar[30] keçirilib və hökumətə bir neçə dəfə müraciət edilib. Eyni zamanda 1 avqust 2016-cı ildə 26 vətəndaş cəmiyyəti təmsilçisi[31] hökumətə etdikləri müraciətdə vətəndaş cəmiyyəti təmsilçilərinin geniş qatılımı ilə Açıq Hökumət Tərəfdaşlığı Platformasının formalaşdırılması prosesinin sürətləndirilməsinin zəruriliyini bəyan ediblər. Ancaq Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə Dialoq Platformasını yaradarkən bu bəyanatı imzalayanların yalnız üç nəfəri tədbirə dəvət edilib.

Platforma Azərbaycandan vətəndaş cəmiyyətinin təşkilatlarının çökdürüldüyü bir dövrdə yaradılıb. 2014-cü ildən başlayaraq vətəndaş cəmiyyətinə basqılar bir çox aparıcı təşkilatların fəaliyyətini iflic etdi, bir çoxlarının fəaliyyətini dayandırması və ofislərinin bağlanması ilə yekunlaşıb. Belə vəziyyətdə platformaya qoşulmaq istəyən qurumların sayı azlıq təşkil etdi. Bu təşəbbüslər  Azərbaycanın AHT-yə qoşulduğu illərdə olsaydı qoşulmaq istəyən təşkilatların sayı yüzlərlə olardı. Təsadüfi deyil ki, Mədən Sənayesində Şəffaflığın Artırılması üzrə QHT Koalisiyasının üzvlərinin sayı 150-dən çoxdur.

Dialoq Platformasının hələ də idarəetmə prosedurlarını tənzimləyən Əsasnaməsi qəbul edilməyib. Koordinator seçkisini, onun səlahiyyət müddətini, iclasların keçirilməsi tezliyini, qərarların qəbulu mexanizmlərinin müəyyən edəcək prosedurlar qəbul edilməyib. Eyni zamanda Dialoq Platformasındakı indiyədək gedən müzakirələrdən belə aydın olur ki, burada kollegial idarəetmə qurumu (İdarə Heyəti, Şura və s.) nəzərdə tutulmur.

Hazırda Platformada 8 dövlət qurumu təmsilçisi, 2 parlament üzvü, 31 QHT nümayəndəsi təmsil olunur. Platformaya üzvlük dəvət əsasında həyata keçirilib. Platformada müstəqil vətəndaş cəmiyyəti təmsilçiləri məhdud şəkildə təmsil olunurlar, müstəqil təşkilatların bir çoxu üzvlükdən kənarda qalıblar.

- *Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi*

Bu fəaliyyətin icrasına məsul olan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası elan etdiyi qrant müsabiqələrində Açıq Hökumət Tərəfdaşlığını bir istiqamət kimi nəzərə alıb.

2016 və 2017-ci illərdə elan etdiyi 4 layihə müsabiqəsində Açıq hökumətin təşviqi və mədən sənayesində şəffaflığın artırılmasına dair təşəbbüslər, o cümlədən "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"ndan  irəli gələn məsələlər üzrə təşəbbüsləri dəstəklənib. 2016-cı ildə Şura tərəfindən açıq hökumət təşəbbüslərinin dəstəklənməsi üçün 15 təşkilata 135 min manat, 2017-ci ilin I rübündə isə 16 təşkilata 107,8 min manat məbləğində vəsait ayrılıb. Şura 2017-ci ilin aprel ayında elan etdiyi 2-ci qrant müsabiqəsində açıq hökumət təşəbbüsləri tam bir istqamət kimi yox, onun bir istiqamətinin - İ*ctimai nəzarət və şəffaflıq*

[30] http://www.sei.az/news-1170.html
[31] http://arqument.az/az/msteqil-vetendas-cemiyyeti-temsilileri-hkumete-mraciet-etdiler/#.V6C5TkaLTDc

*məsələlərinə dair təşəbbüslərin dəstəklənməsi* nəzərə alınıb. Qeyd edək ki, bu təşkilatların çoxu qeyd olunan Dialoq Platformasının üzvləridir və onların da əksəriyyətinin veb-səhifəsi yoxdur. Layihələrin əksəriyyətinin ümumi mövzular üzrə monitorinq və maarifləndirmə kimi fəaliyyətləri nəzərdə tutulur. Bununla belə hər hansı monitorinq hesabatını əldə etmək mümkün olmayıb.

- *Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflərin hazırlanması*

QHT-lərin fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflərin hazırlanması Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası məsul olsa da bu qurumlar tərəfindən təkliflərə rast gəlmək mümkün olmayıb. Yalnız Dialoq Platforması Milli Məclisə "Qrant haqqında" qanuna dəyişikliyi nəzərdə tutan təkliflər təqdim edib. Həmçinin bu təkliflər ancaq platforma daxilində müzakirə olunub və təkliflərə ictimai əlçatanlıq yoxdur.

18 aprel 2017-ci ildə Bakıda Avropa İttifaqı ilə Avropa Şurasının birgə layihəsi olan "Azərbaycanda vətəndaş cəmiyyəti dialoqu" layihəsi çərçivəsində keçirilən konfransda[32] dövlət təmsilçilərinin, o cümlədən QHT-yə Dövlət Dəstəyi Şurası rəhbərinin çıxışı göstərdi ki, hökumət mövcud QHT qanunvericiliyini yumşaltmaq niyyətində deyil.

***İctimai iştirakçılığın genişləndirilməsi*** alt istiqamət üzrə bir sıra dövlət qurumlarının nəzdində ictimai şuralar yaradılsa da, həmin şuraların seçim kriteriyaları, prosedurları açıq olmayıb. Digər tərəfdən ictimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması hallarına rast gəlinməyib.

***Maliyyə şəffaflığının təmin edilməsi*** istiqamətində 7 öhdəlik nəzərdə tutulub və onların icrası 2016-2018-ci illəri əhatə edir. Hesabat dövründə maliyyə şəffaflığının təmin edilməsi sahəsində əhəmiyyətli iş görülməyib. İstər dövlət büdcəsini layihəsinin vətəndaş cəmiyyəti ilə müzakirəsi, istərsə də büdcə icrasının rüblük və illik hesabatının dərci istiqamətində köhnə təcrübələr qalmaqdadır.

***Korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi*** istiqaməti üzrə maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı mexanizmlərin hazırlanması, vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim olunması ilə bağlı addım atılmayıb, Milli Məclis deputatının Etik Davranış Qaydaları isə hazırda parlamentdə müzakirə mərhələsindədir.

## 6. Tövsiyələr

**Azərbaycan hökumətinə:**

- 2017-ci ilin ikinci yarısından etibarən bütün maraqlı tərəflərin iştirakı ilə yeni Fəaliyyət Planının hazırlanmasına start verilsin. Növbəti mərhələdə Fəaliyyət Planının əsas hissəsi dövlət idarəetməsində şəffaflıq və hesabatlılığın artırılması, korrupsiyaya qarşı effektiv mübarizə, ictimai iştirakçılıqlığın həqiqətən genişləndirilməsini nəzərdə tutan tədbirlər daxil edilməlidir.

[32] http://aztv.az/readnews.php?lang=az&id=29007

- Vətəndaş cəmiyyətinin müstəqil və sərbəst fəaliyyəti üçün mühit təmin edilməlidir. QHT və fondların, ictimai birliklərin, qeyri-kommersiya qurumlarının fəaliyyətini tənzimləyən qanunvericilik elə səviyyədə təkmilləşdirilməldir ki, bu qurumların qeydiyyatını kifayət qədər sadə və bürokratik manelər olmadan reallaşdırmaq mümkün olsun. Beynəlxalq təşkilatların donor kimi fəaliyyətinə qoyulan bütün məhdudiyyətlər aradan qaldırılmalı, yerli təşkilatların müqavilə əsasında Konstitusiya və qanunlar çərçivəsində istənilən mövzu ilə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlığına, onların vasitəsilə öz fəaliyyətlərini həyata keçirmək üçün zəruri resurslar cəlb etməsinə maneələr ləğv edilməlidir. Qrantların qeydiyyat sistemi tam sadələşdirilməli, deklarativ xarakter daşımalı, QHT-lər üçün nəzərdə tutulan yüksək cərimələr İnzibati Xətalar Məcəlləsindən çıxarılmalıdır.

- Açıq Hökumət Tərəfdaşlığı üzrə hökumət və vətəndaş cəmiyyəti arasında daimi dialoq mexanizminin yenidən formalaşdırılması üçün Azərbaycanda fəaliyyət göstərərn beynəlxalq təşkilatların müşahidəçi kimi iştirakı ilə bütün maraqlı tərəflərlə dialoq başlanmalı, məqsəd və vəzifələri aydın olan, idarəetmə mexanizmi effektiv və açıq olan, gerçək vətəndaş cəmiyyətinin iştirakını nəzərdə tutan qurum formalaşdırılmalıdır.
- Azərbaycan hökuməti Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünə qayıtmalı, EITI İdarə Heyətinin tövsiyyələrini icra etməlidir.

**Açıq Hökumət Tərəfdaşlığı Rəhbər Komitəsinə:**

- Azərbaycanın OGP-dəki qeyri-aktiv statusu daha bir il uzadılsın və OGP Rəhbər Komitəsi Azərbaycan hökumətinə spesifik tövsiyyələri nəzərdə tutan Tədbirlər Planı təqdim etsin. Tədbirlər Planına Azərbaycan hökumətinin Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının OGP meyyar və standarlarına uyğunlaşdırılması və vətəndaş cəmiyyətinin prosesdə sərbəst iştirakı təmin etməsi üçün şərtlər toplusu daxil edilsin.